# Zəngilanın Ağalı kənd məktəbində 29 ildən sonra ilk zəng çalınıb



***Ermənistanın işğalından azad olunan Zəngilan rayonunun Ağalı kənd tam orta məktəbində 29 ildən sonra ilk dəfə dərs başlayıb. Bu münasibətlə keçirilən mərasimdə Elm və Təhsil naziri Emin Əmrullayev, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev iştirak ediblər.***



Bildirilib ki, 2021-ci ilin aprelin 26-da Prezident İlham Əliyev tərəfindən Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməli qoyulub. Bu il mayın 27-də "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva mərasimdə iştirak ediblər. Ağalı kənd sakinlərinin ilk qrupu 2022-ci il iyulun 19-da, ikinci qrupu isə sentyabrın 7-də və 10-da doğma yurdlarına qayıdıblar. Bu il Ağalıda 13 müəllim tədris prosesinə cəlb olunub. 360 şagird yerlik məktəbdə 62 məktəbli təhsil alacaq.

Zəngilan rayonunun Ağalı kənd məktəbində 29 ildən sonra ilk dərslərə start verilib. Yeni tədris ilində cəmi 7 şagird Ağalıda birinci sinfə gedəcək. Ağalı məktəbində ilk dərs "Qarabağ Azərbaycandır!" mövzusuna həsr olunub.

**Ağalıda Bilik Günündə iştirak edən Emin Əmrullayev jurnalistlərə açıqlamasında bildirib:**

– Cəbrayıl və Füzuli bölgələrində məktəblərdə də tikinti işləri başlanılıb. Suqovuşan qəsəbəsindəki məktəb təmirdən sonra hazır vəziyyətdədir. Füzuli peşə liseynin hazırlıq prosesi bitmək üzrədir. Şuşa Real məktəbinin də artıq layihələndirilməsi bitib. Bütün bu layihələr özlüyündə 10 minlərlə şagirdi əhatə edəcək.

Şəhərsalma-proqnozlaşdırma baxımından köçürüləcək əhalinin planlaşdırılması, hazırda müxtəlif bölgələrdə fəaliyyətdə olan məktəblərin düzgün şəkildə köçürülməsi, o cümlədən, müəllimlərin işlə təmin olunması, bu bölgələrdə keyfiyyətli tədrisin təmin edilməsi kimi layihələr üzərində işlənilir.

***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2022.- 16 sentyabr.- S.5.